# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №13 (7347) | 12 iyul 2014-cü il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# YAXŞI YOL, ƏZİZ GƏNCLƏR!

## Əsgərliyə yolasalma mərasimindən qeydlər

**Şəhərin baş meydanında- Heydər Əliyev meydanında qələbəlik idi. Valideynlər, əmək və müharibə veteranları, ictimaiyyət nümayəndələri gənclərin hərbi xidmətə yola salınma mərasiminə toplaşmışdılar.**

Öncə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, şəhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi polkovnik-leytenant S.Həsənov, hərbi xidmətə yola düşəcək gənclər ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib ətrafına gül dəstələri düzdülər.

Şirvan şəhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi polkovnik-leytenant S.Həsənov çıxış etdi.

S.Həsənov dedi ki, Vətənə xidmət, əsgər olmaq şərəfli vəzifədir. Gənclərimiz bu vəzifəni layiqincə yerinə yetirirlər. Milli Orduda xidmət edən şirvanlılar döyüş texnikasının sirlərinə bacarıqla yiyələnir, komandirlərinin əmrlərinə vaxtında, dəqiq əməl edirlər. Onların xoş soraqlarını eşidirik.

Bəli, bu gün güclü ordumuz var. Lakin bu ordunun yaradılması asan başa gəlməmişdir.

Azərbaycanda nizami ordu quruculuğu istiqamətində ardıcıl addımlar atılması məhz ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra mümkün oldu. Mürəkkəb şəraitdə Heydər Əliyevin qarşısında dövlətçiliyin qorunub saxlanılması ilə yanaşı, ordu quruculuğuna başlamaq kimi ağır vəzifələr dayanırdı.

Həmin dövrdən başlayaraq ümummilli liderin rəhbərliyi altında Silahlı Qüvvələrin komplektləşdirilməsi, nizam-intizamın, döyüş əhval-ruhiyyəsinin qaldırılması, Milli Ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində qətiyyətli addımlar atıldı.

Ulu öndərdən sonra ordu quruculuğu siyasətinin yeni dövrü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Azərbaycan Silahlı Qüvvələrinin kəmiyyət və keyfiyyət baxımından komplektləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, ordu hissələrinin müasir texnika və avadanlıqla təchiz edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi. Orduya diqqət və qayğının ən bariz təcəssümü özünü büdcə xərclərinin dinamik artımında göstərir. Bəli, bu gün Azərbaycanın güclü ordusu, cəsur əsgər və zabitləri var. Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə tam hazırdır. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev işğal olunmuş torpaqlarımızın azad oluması istiqamətində uğurlu siyasət aparır. Düşmən işğal etdiyi ərazilərimizdən çıxmazsa Milli Ordu öz sözünü deyəcək.



Müstəqil Azərbaycanımızın ərazi bütövlüyünün təmini şanlı ordumuzun üzərinə düşəcək. Ona görə də sabah əyninə əsgər paltarı geyinəcək siz oğullar hərbi texnikanın sirlərinə kamil yiyələnməli, lazım gələrsə azğın düşməni yerində oturtmalısınız. İnanıram ki, siz xidməti vəzifənizi şərəflə yerinə yetirəcəksiniz. Müqəddəs torpağımızı göz bəbəyiniz kimi qoruyacaqsınız.

S.Həsənov çağırışçılara uğurlu yol arzuladı. Oğulları əsgər gedən ata-analara gözaydınlığı verdi.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov çıxış etdi. Dedi ki, Azərbaycan həmişə mərd, igid oğullar yetişdirib. Babəklər, Koroğlular, Həzilər, Mehdi Hüseynzadələr, Mübariz İbrahimov kimi oğullar yetirən xalq, azğın düşmənə həmişə tutarlı cavab verib.

Erməni qəsbkarları 20 faizdən çox torpağımızı zəbt edib. 1 milyon nəfərdən çox qaçqın, köçkünümüz var. İşğalçılarla döyüşdə şirvanlılar da öz sözünü deyib. Vətən, torpaq yolunda şirin canlarından keçən şirvanlılardan 3 nəfəri-Nofəl Quliyev, Rəfael Həbibov, Tahir Bağırov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər. Döyüş orden və medalları ilə təltif olunan həmşəhərlilərimiz də çoxdur. İnanıram ki, bu gün orduya yollanan gənclərimiz bu igidlərimizin yolunu şərəflə davam etdirəcəklər.

Başçı orduya yola düşən oğullara uğurlar arzuladı.

Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin Şirvan şəhər şöbəsinin sədri Vaqif Həmzəyev, oğlu hərbi xımətə yola düşən valideyn, 10№-li tam orta məktəbin direktoru A.Əliyev, şərəfli döyüş yolu keçmiş bu gun isə estafeti oğluna verən Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyi şəhər şöbəsinin sədri Pənah Xankişiyev, II qrup Qarabağ müharibəsi əlili Əlniyaz Əliyev çıxış edərək gənclərə uğurlu yol arzuladılar. Çağırışçı Ceyhun Qədirli yoldaşları adından layiqli əsgər olacaqlarına söz verdi.

Din xadimi Hacı Vasif çıxış edərək gənclərə xeyir-dua verdi.

Orduya yollanacaq gənclərin baxışlarından sevinc oxunurdu.



Bir dəstə gəncə yaxınlaşırıq. Onlardan biri ilə tanış oluruq. Cəbhə bölgəsində xidmət edən qısa müddətli məzuniyyətə gəlmiş Vüqar Əliyev xalası oğlunu yola salmağa gəlmişdi. Vüqar ordu həyatından, çətinliklərə birgə sinə gərdiyi əsgər yoldaşları barədə ətrafına toplaşanlara məlumat verirdi. Deyirdi ki, layiqli xidmət etmək üçün hissəmizdə hər cür şərait var. 1 il 3 aydır ki, əsgərlikdəyəm. Vaxtın nə vaxt keçdiyindən xəbərim olmayıb...

Gənclər Azərbaycan bayrağı və müqəddəs kitabımız Qurani- Kərimin altından keçdilər. Sonra şəhər mədəniyyət işçiləri maraqlı konsert proqramı ilə çıxış etdilər. Valideynlər övladları ilə rəqsə qoşuldular. Sevinc-sevincə qarışmışdı...

«Maşınlara» əmri eşidən kimi gənclər öz yerlərini tutdular. Rahat maşınlar hərbi hissələrə istiqamət götürdü.

«Vətəni sevmək imandandır» deyən Məhəmməd peyğəmbərin bu kəlamını xatırladım. İnanırıq ki, bu gənclərimiz də müstəqil Azərbaycanımızı, analar anası Vətənimizi daha məhəbbətlə sevəcək, onun hər qarışını göz bəbəyi kimi qoruyacaqlar.

Yaxşı yol, əziz gənclərimiz. Salamat gedib, salamat qayıdın.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI QEYD OLUNDU

**23 iyun-Dövlət Qulluqçularının peşə bayramı şəhərimizdə də layiqincə qeyd edilmişdir. Şirvan şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev, tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül-çiçək dəstələri düzdülər. Ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**

Heydər Əliyev Mərkəzində Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olurlar.

Sonra icra hakimiyyətinin akt zalında dövlət qulluqçularının peşə bayramı gününə həsr olunmuş yığıncaq keçirildi. Yığıncağı Şirvan şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev açaraq bu peşə bayraminin tarixindən danışmışdır.

S.Abıyev demişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli 1476 saylı Sərəncamı ilə 23 iyun günü hər il Azərbaycan Respublikasında dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edilir. Artıq 9 ildir ki, biz dövlət qulluqçuları 23 iyun gününü peşə bayramımız kimi qeyd edirik.

Bu gün keçirdiyimiz tədbir də bu əlamətdar günə həsr edilir.

Bildiyiniz kimi Azərbaycan Respublikasında dövlət qulluğunun təşkilində, əsas qanunumuzun - Konstitutsiyamızın və digər qanunların işlənib hazırlanmasında ümummilli liderimiz Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Onun milli kadrların hazırlanmasında və rəhbər vəzifələrə irəli çəkilməsində həyata keçirdiyi kadr siyasəti bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İndi ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirlik, komitə və icra strukturlarında 3 minə yaxın vətəndaş dövlət qulluğunda çalışır. 10 min nəfərdən çox şəxs isə dövlət qulluqçusu kimi pensiya alır. Dövlət qulluğunda fərqlənən qulluqçular orden və medallarla təltif olunur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev dövlət qulluqçularının öz vəzifələrini yerinə yetirərkən istifadə etdikləri qanunvericilik aktlarının, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müraciətlərinə baxılmasının hüquqi əsaslarının vaxtaşırı tənzimlənməsinin təmin edir.

Azərbaycan Respublikasının Milli Məclisi dövlət idarəetmə sisteminin fəaliyyətinin tənzimlənməsi, bu və ya digər sahələr üzrə 3500-dən artıq qanunlar işləyib hazırlamış və təsdiq etmişdir.

Bu gün dövlət qulluqçusunun əsas vəzifəsi qəbul olunan qanunlara mükəmməl yiyələnib, onları işdə, fəaliyyətdə düzgün tətbiq etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi hər bir dövlət qulluqçusu öz vəzifə borcunu dəqiq və peşəkarlıqla yerinə yetirməli, vətəndaşların qayğısına qalmalı, onların müraciətlərinə, ərizə və şikayətlərinə, təkliflərinə diqqətlə, həssaslıqla yanaşmalı, qüvvədə olan qanuna uyğun olaraq tədbirlər görülməsini təşkil etməlidir.

"Biz xalq üçün yaşayır, xalq üçün işləyir və xalq qarşısında məsuliyyət daşıyırıq" deyən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü bu siyasət bizim hər birimizin həyat amalına çevrilməlidir. Qeyd etməliyəm ki, son illər Şirvan şəhərində çalışan dövlət qulluqçuları bu amala, bu məqsədə layiqincə xidmət edirlər.

Daha sonra S.Abıyev demişdir: bildiyiniz kimi bu il eyni zamanda Bələdiyyə seçkiləri ilidir. Biz dövlət qulluqçularının əsas vəzifəsi Bələdiyyə seçkilərini Seçki Məcəlləsinin tələblərinə uyğun demokratik və şəffaf keçirilməsi üçün təşkilatı işləri yüksək səviyyədə qurmaqdan ibarətdir.

Əminəm ki, Şirvan şəhərinin dövlət qulluqçuları bütün seçkilərdə olduğu kimi, bu il keçiriləcək Bələdiyyə seçkilərinin təşkilində də yuksək mütəşəkkillik və əzmkarlıq nümayiş etdirəcək, seçkilərin yüksək ictimai-siyasi fəallıq şəraitində keçirilməsinə öz tohfələrini verəcəklər. Bu işdə Sizin hər birinizə uğurlar diləyirəm.

Bayramınız mübarək, əziz dövlət qulluqçuları!

Sonra çıxış edən dövlət qulluqçuları-şəhər icra hakimiyyəti başçısının müavini E.Abbasov, təhsil şöbəsinin müdiri P.Nəbiyev, şəhər gənclər və idman idarəsinin rəisi A.Quliyev onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və şəhər rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.

Şirvan şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev tədbiri yekunlaşdırdı.

**«İŞIQ»**

## TƏBRİK EDİRİK!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 iyun 2014-cü il Sərəncamı ilə Şirvan şəhər İcra Hakimiyyəti Sosial İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Əbilov İltifat Qüdrət oğlu dövlət qulluğunda səmərəli fəaliyyətinə görə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilmişdir.

İ.Əbilovu təbrik edir, məsul işində uğurlar, möhkəm can sağlığı arzulayırıq.

**«İŞIQ»**

# MUZEYƏ MİNİATÜR KİTAB HƏDİYYƏSİ




**Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərdiyi müddətdə, istər muzeydə, istər muzeydən kənarda müxtəlif mövzularda tədbirlər həyata keçirir. 14 yanvar 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Muzey bu sərəncamı əsas tutaraq tədbirlər planı hazırladı. Plana əsasən mühazirələrin, tarix dərslərinin keçirilməsi nəzərdə tutulurdu. İlk tədbir mart ayında "Azərbaycanın qədim diyarı Naxçıvan" mövzusunda keçirilmişdir.**

Tədbirin fərqli cəhətlərindən biri də, o idi ki, buraya şəhərimizdə yaşayan, əslən Naxçıvandan olan ziyalılar dəvət olunmuşdular. Dəyirmi masada Naxçıvanın qədim tarixindən, orta əsr memarlıq məktəbindən, dünya şöhrətli insanlarından, füsunkar təbiətindən danışıldı. İştirak edənlərdən Şirvan İES MMC-nin rəis müavini Zeynal Əsgərovun, Gömrük idarəsinin deklarasiya şöbəsinin müdiri Etibar Bağırovun, 18 nömrəli məktəb-liseyin coğrafiya müəllimi Şəlalə Yusifovanın və başqalarının adlarını çəkmək olar.

Tədbir "Azərbaycan" qəzetinin Naxçıvan MR üzrə bölgə müxbiri Elxan Yurdoğlu, Naxçıvan MR-ın elm adamları, muxtar respublikanın Ali Məclisinin mətbu orqanı olan "Şərq qapısı"qəzeti tərəfindən yüksək dəyərləndirildi. Burada biz Varif müəllimin adını çəkməyə bilmərik. Kimdir Vaqif Məmmədov? V.Məmmədov 1948-ci ildə Naxçıvan MR-ın Sədərək kəndində anadan olub. Azərbaycan Jurnalistlər Birliyinin (1992), Azərbaycan Yazıçılar Birliyinin (1995) üzvü, tarix üzrə fəlfəsə doktoru (2001), Əməkdar mədəniyyət işçisi (2005), "Qızıl qələm"(2012) və "Həsənbəy Zərdabi"(2013) mükafatı laureatıdır.1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin depudatı olmuşdur. 35-dən artıq şeir və elmi publisistik kitabın müəllifidir. Şeirləri ingilis, fransız, türk, rus, ərəb, fars, özbək və s. dillərə tərcümə olunaraq dünyanın 12 ölkəsində çap olunub. Tehranda, Təbrizdə və Makuda keçirilən Şəhriyar günlərində (2006-2010), Hollandiyada keçirilən Xocalı soyqırımına aid (2007), Pakistanda keçirilən "Süfizm və sülh" (2010) beynəlxalq simpoziumlarında iştirak və çıxış etmiş, Dünya azərbaycanlılarının iki qurultayına nümayəndə seçilmişdir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru, universitetin "Jurnalistika və dünya ədəbiyyatı" kafedrasının dosentidir.

Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyinə xüsusi diqqət, eyni zamanda Şirvan şəhərinə göstərilən hörmət aləməti olaraq Vaqif müəllim "Qalib gəldi, qalib getdi" adlı 6 cildlik miniatür kitab dəstini hədiyyə etmişdir. Kitab dəsti ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə İstanbulda nəşr edilmişdir. Çapa hazırlayan və redaktoru Vaqif müəllim özüdür. Burada Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq, elm, təhsil, mədəniyyət, incəsənət, Naxçıvan haqqında, eyni zamanda H.Əliyevin özü haqqında deyilən 96 dövlət, mədəniyyət, elm və s. xadimlərinin kəlamları Vaqif müəllim tərəfindən toplanıb çapa verilmişdir. Miniatür kitablar eyni ölçüdən (9,7x7,7 sm), 5 cildi 112, biri isə 102 səhifədən ibarətdir.Yüksək poliqrafik zövqlə dizayn edilmiş kitablara, xüsusi yaraşıq verən onun kənarlarının üç tərəfinin parıltılı, qızılı rənglə boyanmasıdır. Ümummilli lider H.Əliyevin adına layiq zəngin bir nəşrdir! Bu xeyirxah işinə görə biz Vaqif müəllimə minnətdarlığımızı bildiririk. V.Məmmədovun dediyinə görə bu kitab dəstini o ancaq muzeylərə hədiyyə edir. Bakıda, İçəri Şəhərdə fəaliyyət göstərən Miniatür kitablar muzeyində də bu kitab dəsti nümayiş olunur.

Kəlamların bir neçə nümunəsini misal göstərmək istərdik :

"Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi." (Vladimir Putin. Rusiya Federasiyasının prezidenti.)

"Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı yox, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir." (Bill Klinton. ABŞ-ın keçmiş prezidenti.).

Heydər Əliyev:

"Müstəqilliyimizi qoruyub saxlamaq üçün, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, qoruyub saxlamaq lazımdır».

"Əgər siz olmasaydınız, qeyrətli, namuslu, vətənpərvər Naxçıvan camaatı, naxçıvanlılar olmasaydı, Heydər Əliyev tək heç bir şey edə bilməzdi."

"Naxçıvan haqqında mənim ürəyim o qədər doludur ki, nə qədər desəm yenə də tükənməz."

Sonda yazınıı V.Məmmədovun "Qalib gəldi, qalib getdi" seirinin bir bəndi ilə bitirmək istərdik:

**Sözü qanun qayda idi,**
**Nəcabəti soyda idi.**
**Azərbaycan boyda idi,**
**Qalib qəldi, qalib getdi.**

**Gülşən VƏLİYEVA,**
**Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyinin direktoru**

# ŞİRVANDA«AZƏRBAYCANIN İNNOVATİV İNKİŞAFI» MÖVZUSUNDA SEMİNAR KEÇİRİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası şəhərimizdə «Azərbaycanın innovatik inkişafı» mövzusunda seminar keçirmişdir. Şirvan şəhər İcra Hakimiyyətinin akt zalında baş tutan tədbirə 17 şəhər və rayon icra hakimiyyəti sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbələrinin müdirləri və baş məsləhətçiləri qoşulmuşdular.**



Seminarı Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov açmışdır. Başçı qonaqları salamlamış, seminarın fəaliyyətinə uğurlar arzulamışdır. Sonra şəhərdə aparılan geniş quruculuq və abadlıq işlərindən, əhalinin sosial problemlərinin həlli, sahibkarlığın inkişafı istiqamətində görülmüş tədbirlərdən danışmış, bu cür seminarların yerlərdə çalışan dövlət qulluqçuları üçün əhəmiyyətli olduğunu vurğulamışdır.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tədbirdə «Azərbaycan Respublikasının innovativ inkişafı beynəlxalq təşkilatalrın sənədlərində» mövzusunda məruzə ilə çıxış etmişdir. Rektor Azərbaycanın sürətlə inkişaf etdiyini və bu inkişafın nəticəsi olaraq beynəlxalq nüfuzunun gündən-günə artdığını, ölkəmizin bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini vurğulamışdır. U.Ələkbərov Azərbaycanın inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində,müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda öz təsdiqini tapdığını seminar iştirakçılarının diqqətinə çatdırmışdır. Rektor qeyd etmişdir ki, əldə olunan nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş innovativ inkişaf strategiyası durur və bu strategiyanın reallaşdırılmasında dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusilə Heydər Əliyev Fondu, onun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rolu xüsusi qeyd edilməlidir. U.Ələkbərov, həmçinin innovativ tərəqqini əsas və həlledici amili olan insan potensialının inkişaf səviyyəsi, onun əsas meyarları haqqında danışmışdır.

«Azərbaycanın müasir inkişaf konsepsiyası: varislik və innovativlik» mövzusunda çıxış edən akademiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov ümummilli lider Heydər Əliyevin elmi-nəzəri və siyasi irsini və onu bu gün öz əməli fəaliyyətində davam və inkişaf etdirən Prezident İlham Əliyevin uzun illərə hədəflənmiş siyasi kursunu təhlil edərək, ölkənin innovativ inkişaf strategiyasının əsas konturlarını diqqətə çatdırmışdır. «Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində innovativ metodların tətbiqi» mövzusunda çıxış edən akademiyanın elmi-təşkilat şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsinin dövlət idarəçiliyinin prioritet istiqamətlərindən biri olduğunu vurğulamışdır. O, hər bir dövlət qulluqçusunun məhsuldar fəaliyyətinin çalışdığı müəssisənin səmərəliliyinin yüksəldilməsində vacib amil olduğunu və səmərəli fəaliyyəti əngəlləyən problemlərin aradan qaldırılmasının müasir dövlət idarəçilik elminin əsas tədqiqat mövzularından biri kimi müəyyən edilidyini söyləmişdir. R.Rəhimli beynəlxalq təcrübədə dövlət qulluqçularının fəaliyyətinin qiymələndirilməsində tətbiq olunan innovativ metodlar, həmçinin ölkəmizdə bu sahədə həyata keçirilən islahatlar haqqında məlumat vermişdir.

Sonda məruzəçilər seminar iştirakçılarının suallarını cavablandırmışlar.

Seminarı Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov yekunlaşdırmış, qonaqlara dəyərli çıxışlarına görə təşəkkür etmişdir.

# BAYRAMI ƏSGƏRLƏRLƏ BİRGƏ

**26 iyun Silahlı Qüvvələr Günü YAP şəhər təşkilatının sədri Ə.İbrahimov, YAP qadınlar şurasının sədri M.Səmədova, «Şirvan» Mədəniyyət evinin direktoru M.Əliyeva, ictimaiyyətin nümayəndələri «N» saylı hərbi hissədə olmuş, bayramı vətən keşikçiləri ilə birgə keçirmişlər.**

M.Səmədova və Ə.İbrahimov çıxış edərək bayram münasibətilə əsgər və zabitlərə xoş arzularını çatdırmış, onlara bayram sovqatı vermişlər.

Mədəniyyət evinin direktoru M.Əliyeva da təbriklərə qoşulmuşdur.

Sonra söz musiqiyə, mahnıya, rəqsə verilmişdir. «Şirvan» Mədəniyyət evinin «Şirvan» instrumental ansamblı (ansamblın bədii rəhbəri Azər Hüseynov, konsertmeysteri Nadir Vəliyevdir) rəngarəng nömrələrlə tədbir iştirakçılarını şənləndirmişlər. Nərminə Məmmədova, Mətanət Şirvanlı, Sadiq Həsənli, Rəşad Sərəslanoğlu, Rövşən Fərəcov çıxışları ilə əsgər və zabitlərə əsl bayram ovqatı bəxş etdilər. Meyxanaçı Sədi Şiraziyə Milli Ordunun əsgəri Rəfail Muradxanlı da qoşuldu. Onların çıxışları alqışlarla qarşılandı.

Əsgər və zabitlər Şirvan Mədəniyyət evinin oğlanlardan ibarət rəqs qrupunun



üzvlərinə qoşulub rəqs etdilər.

«N» saylı hərbi hissənin komandiri T.Əlipaşayev çıxış etdi. O, 26 iyun Silahlı Qüvvələr Günündə bayramlarına şənlik qatan şirvanlılara minnətdarlığını bildirdi. «Şirvan» instrumental ansamblının hər gəlişini sevinclə qarşıladıqlarını xatırlatdı. O bu diqqətə görə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalova, Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsinin, «Şirvan» Mədəniyyət evinin rəhbərliyinə və musiqiçilərinə təşəkkür etdi.

Bayram tədbiri «Yaşa Azərbaycan» mahnısının şən, oynaq sədaları altında «Yallı» rəqsi ilə başa çatdı.

**«İŞIQ»**

# «VƏTƏN MƏNƏ OĞUL DESƏ...»

**26 iyun Silahlı Qüvvələr Günü münasibətilə Şirvan Dövlət Rəsm qalereyasında «Vətən mənə oğul desə...» adlı sərgi təşkil olunmuşdur. Kiçikyaşlı uşaqlarda vətənpərvərlik hissinin yüksəldilməsi və onların vətənə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunmasına kömək məqsədilə açılmış sərgidə qalereya rəsm dərnəyi üzvlərinin bu mövzuda çəkdikləri 30-dan artıq rəsm əsəri nümayiş etdirilirdi.**

Sərginin açılış mərasimindən öncə qalereyanın direktoru Z.Hüseynov dəvətliləri salamlayaraq sərginin əhəmiyyətindən danışdı. Ardınca «Bənövşə» və «Qızıl gül» uşaq bağçalırının körpələri «Azərbaycan əsgəri» adlı şeir kompozisiyası səsləndirdilər.

Sonra sərgi dəvətlilərin ixtiyarına verildi. Sərgidəki rəsm əsərləri barədə qalereyanın baş fond mühafizi Ç.Vəliyeva danışdı.

Sərgilənən rəsm əsərləri mövzu və kompozisiya baxımından dolğun, süjet xətti baxımıdan isə sadə və aydın təsir bağışlayırdı.

Belə ki, vətənpərvərlik mövzusunda işlənmiş əsərlərdə Azərbaycan əsgərinin, dövlət bayrağımızın və döyüşən qəhrəman oğullarımızın təsvirinə daha çox yer verilmişdi.

Əsərlərdəki rəng həlli də çoxkolaritliliyi ilə seçilirdi. Məhz bu keyfiyyətlərinə görə sərgi kiçikyaşlı uşaqların böyük marağına səbəb oldu.

Sərgidə Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsinin əməkdaşları, həmçinin «Bənövşə» və «Qızıl gül» uşaq bağçalırının müəllim və uşaqalrı iştirak edirdilər.

Sərgi bir həftə davam etdi.

**Ç.VƏLİYEVA,**
**Şirvan Dövlət Rəsm qalereyasının baş fond mühafizi**

# PROBLEMLƏR BİRGƏ HƏLL OLUNACAQ

**D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyəti Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə «Yerli problemlərin həllində QHT-lərlə bələdiyyələrin birgə əməkdaşlığı yolu ilə ictimai iştirakçılığa təşəbbüs» adlı layihənin icrasını həyata keçirir. Layihənin məqsədi ictimai problemlərin həllində QHT-lərlə bələdiyyələrin birgə əməkdaşlığına nail olmaqdır. Eyni zamanda «İctimai iştirakçılıq haqqında» qanunla bağlı məlumatlandırılma aparmaq və vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun ictimai iştirakçılıq formasında gerçəkləşdirilməsinin təşkilatı hüquqi formasının tapmasına kömək etməkdir.**

Layihənin reallaşacağı şəhərlərdən biri də Şirvandır. Şirvan Regional QHT-lərin Resurs və Təlim Mərkəzində baş tutan tədbirdə D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyətin üzvü, layihənin koordinatoru Nabat Qəniyeva tədbir iştirakçıları qarşısında ətraflı çıxış etdi. Nabat xanım layihə barədə danışarkən dedi ki, onun icrasından sonra uğurlu nəticələr əldə ediləcəkdir. İlk növbədə Bələdiyyə, QHT və əhali əməkdaşlığına nail olunacaq. QHT bələdiyyələrə layihə yazmaq, maliyyə mənbəyi tapmaq və layihə həyata keçirməyin yollarını öyrədəcək.

Şəhər icra hakimiyyətinin, Bələdiyyənin məsul işçilərinin, eləcə də QHT nümayəndələrinin, ictimai təşkilat üzvlərinin, KİV nümayəndələrinin iştirak etdiyi tədbirdə Bələdiyyə və QHT yerli problemləri birgə həll etmək üçün işçi qrupu yaradıldı. İşçi qrupu opreativ fəaliyyətə başladı.

Problemlər və onların həlli yolları barədə fikir mübadiləsi aparıldı. İşçi qrupu 21 nömrəli tam orta məktəbin idman meydançasının yenidən qurulması təklifini nəzərdən keçirdi. Problemin mövcud olduğu ərazidə real vəziyyətdə tanış oldu. Yenidənqurma işləri üçün lazım olan materiallar alınıb məktəb rəhbərliyinə təqdim olundu. Yaxın günlərdə işlərə başlanacaq.

Sonra təlimçi Cəmilə Səmədova 2014-cü il iyunun 1-dən qüvvəyə minmiş «İctimai iştirakçılıq haqqında»qanun barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi.

Axırda suallar cavablandırıldı.

**«İŞIQ»**

# 4 NÖMRƏLİ MƏKTƏBİN KOMANDASI II BEYNƏLXALQ YARIŞDA FƏRQLƏNDİ



**Bir neçə gün öncəsi Qəbələdə gənc xilasedici və yanğınsöndürənlərin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş III Respublika birinciliyi və gənc xilasedicilərin II Beynəlxalq yarışı başa çatmışdır.**

Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə dəstəyi ilə keçirilən yarışda ölkəmizin müxtəlif bölgələrində keçirilmiş zona yarışlarında yüksək yer tutan komandalar finala vəsiqə qazanmışdılar. Bu yarışın iştirakçısı olan 16 şəhər və rayon komandası sırasında şəhərimizi təmsil edən 4 nömrəli tam orta məktəbin gəncləri də mübarizə aparırdılar. Onu da qeyd edək ki, Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Belarus və Gürcüstandan olan təmsilçilər beş mərhələdə yarışmışlar.

Komandalar şərti olaraq yük avtomobilində və yaşayış evində baş verən yanğının söndürülməsi, zəlzələdə və torpaq uçqunuda köməksiz qalanların xilas edilməsi əməliyyatını uğurla başa vurmuşlar. «Maneələr zolağı», «Kombinə edilmiş yanğın estafeti», «Axtarış-xilasetmə işi», «Komandaların təqdimatı», «Gənc ekspertlər» üzrə birincilik uğrunda yarış gərgin keçmişdir. Hər bir komanda bacarıq və biliyini nümayiş etdirmişdir.

Tədbirdə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, təhsil naziri Mikayıl Cabbarov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək bu yarışın əhəmiyyətindən danışmışlar. Qeyd olunmuşdur ki, bu yarışın məqsədi gənc nəslə hərbi-vətənpərvərlik ruhunun aşılanması, sağlam həyat tərzinin təbliğindən ibarətdir.

Sonra yarış iştirakçılarının mükafatlandırılması mərasimi keçirilmişdir. Qaliblərə mükafatlar təqdim olunmuşdur.

16 şəhər və rayon komandaları arasında şirvanlılar da fərqlənmişlər. Komandamızın üzvləri Elçin Əhmədov, Cavad Həmidov, Novruz Əhmədov (kapitan), Vüsal Beqmatov, Sahil Məmmədov, Əmrah Quliyev, Mirməmməd Məmmədov mötəbər yarışda güclü olduqlarını bir daha nümayiş etdirmişlər.

Müxtəlif nominasiyalara görə 4 nömrəli tam orta məktəbin komandası 3 fəxri fərmanla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərovun imzası ilə respublika üzrə keçirilən III «Gənc xilasedici və yanğınsöndürən» yarışının «Komandanın təqdimatı» müsabiqəsində I yer tutduğuna, respublika üzrə keçirilən III «Gənc xilasedici və yanğınsöndürən» yarışında fəal iştirakına, Azərbaycan Respublikası Təhsil Naziri Mikayıl Cabbarovun imzası ilə «Gənc xilasedici və yanğınsöndürən» respublika yarışında fəal iştirakına görə komandamız fəxri fərmanlar almışdır.

Nailiyyətin qazanılmasında məktəb rəhbərliyinin, hərbi rəhbər Maarif Rəsulovun əməkləri xüsusi qeyd edilməlidir.

Komandamızın üzvlərini təbrik edir, onlara yeni-yeni uğurlar arzulayırıq.

**Əbil ƏHMƏDOV,**
**4 nömrəli tam orta məktəbin müəllimi**

## Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2014-cü ilin III rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Dövlət Qaçqınlar Komitəsinin Şirvan şəhərindəki nümayəndəliyi | 08.07.2014 | Prokuror Həsən Hənifəyev |
| 2 | Şirvan şəhəri,Bayramlı qəsəbəsi | 31.07.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |
| 3 | Şirvan şəhəri, Heydər Əliyev prospektindəki 5№-li nümunəvi məhəllə | 05.08.2014 | Prokuror Həsən Hənifəyev |
| 4 | Şirvan «Telekommunikasiya» qovşağı | 28.08.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |
| 5 | Şirvan «Araz» zavodu | 15.09.2014 | Prokuror Həsən Hənifəyev |
| 6 | «Şirvan Regional Elektrik Şəbəkəsi»MMC | 30.09.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |

**Həsən HƏNİFƏYEV,**
**Şirvan şəhər prokuroru vəzifəsini icra edən baş ədliyyə müşaviri**

# CÜDOÇULAR SİLAHLI QÜVVƏLƏR GÜNÜNDƏ GÜCLƏRİNİ SINADILAR

**Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 96-cı ildönümü münasibətilə Şirvan şəhər Olimpiya İdman Kompleksində cüdo üzrə yeniyetmələr arasında şəhər turniri keçirilmişdir.**

Turnir Şirvan şəhər İcra Hakimiyyəti, Şirvan şəhər Gənclər və İdman idarəsi, Şirvan şəhər Qarabağ Müharibəsi Əlilləri , Veteranları və Şəhid Ailələri İctimai Birliyi və Qarabağ Qazilər Birliyinin təşkilatçılığı ilə hazırlanmışdı.

Dövlət himni səsləndikdən sonra şəhər gənclər və idman idarəsinin rəisi Azər Quliyev, şəhər icra hakimiyyətinin məsul işçisi Adəm Hüseynov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Pənah Xankişiyev, şəhər Səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin əməkdaşı, mayor Asif Əhədov, Qarabağ Qaziləri Birliyinin sədri Seymur Bədəlov çıxış edərək bütün tədbir iştirakçılarını salamladılar. 26 iyun Silahlı Qüvvələr Günü münasibətilə hər kəsi təbrik etdilər, turnirin əhəmiyyətindən, mahiyyətindən, Silahlı Qüvvələrimizin yaranma tarixindən danışdılar və turnir iştirakçılarına uğurlar arzuladılar.

Turnirdə şəhərin orta ümumtəhsil, idman məktəblərinin direktorları, məşqçi- müəllimlər, veteran idmançılar, Əməkdar məşqçilər və yeniyetmə idmançılar iştirak edirdilər.

Turnirdə ümumilikdə 80 nəfər yeniyetmə idmançı mübarizə aparırdı. Onların arasında müxtəlif respublika və beynəlxalq miqyaslı yarışlarda iştirak edən, mükafata layiq yerlər tutan idmançılar var idi.

İki gün davam edən turnirdə müxtəlif çəki dərəcələrində 10 idmançı (Rəşad Adıgözəlov, Əmrah Kərimov, Yusif Kərimov, Hüseyn Məmiyev, Heydər Nəhmədov, Anar Abbasov, Adil Abbaszadə, Vurğun Mirzəliyev, Səid Allahverdiyev, Elnur Kərimov) 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması gününə həsr olunmuş turnirin qalibi adına layiq görüldülər.

Turinirin baş hakimi Əməkdar məşqçi Yunis Əhmədov idi.

Qaliblər və mükafata layiq görülən idmançılar təşkilatçılar tərəfindən diplom, kubok və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

**Əfqan HƏSƏNOV,**
**gənclər və idman idarəsinin aparıcı -məsləhətçisi**

# EKOLOJİ MAARİFLƏNDİRMƏ LAYİHƏSİ

***«Ekoloq»-Ətraf Mühitin Qorunmasına Yardım İctimai birliyi (2001) Şirvan şəhərində, İcma Məlumat Mərkəzində tədbir keçirdi. Şəhər ictimaiyyətinin, müxtəlif təşkilat nümayəndələrinin iştirak etdiyi tədbirdə birliyin «Kür-Araz çayları boyunca yerləşən yaşayış məntəqələrində ekoloji durum və bu sahədə əhalinin maarifləndirilməsi» layihəsinin mahiyyət və prinsipləri təşkilatın hüquqşünası Lalə İsmayılzadə tərəfindən açıqlandı.***

Natiq bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri -Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyəsi əsasında layihə İmişli, Saatlı, Sabirabad və Abşeron yarımadasında həyata keçirilir. Təbii fəlakətlər, ətraf mühitin təmizlənməsi, qorunması, ekoloji tarazlıq haqda qanunda təsbit olunmuş maddələrə diqqəti çəkən Lalə İsmayılzadə, ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirklənməsinin miniuma endirilməsi istiqamətində bələdiyyələrin görəcəyi işlərdən və onların qarşısında duran vəzifələrdən bəhs etdi.

Ekoloji fəlakətlər nəticəsində xəstəliklərin, müxtəlif epidemiyaların yayılması zamanı qorunma, evakuasiya qaydaları, ekoloji təhsil və bu sahədə maarifləndirmə standartları, eyni zamanda iqtisadi tənzimlənmə haqqında İB-in rəhbəri Rübarə Hüseynli çıxış etdi.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırıldı.

**Yaqut HÜSEYNOVA**

# VETERAN GÜLƏŞÇİLƏR

***Keçmiş idmançıların xatırlanması, onların xatirəsinə və şərəfinə həsr olunmuş tədbirlərin keçirilməsi, dövri mətbuatda onlar haqqında məqalələr, kitablar yazılması idmanın təbliğində mühüm rol oynayır. Bu məqsədlə bu yaxınlarda 2 veteran güləşçi ilə görüşüb söhbət etdim.***



**F.Cabbarov**

Fazil Kürən oğlu Cabbarovun dedikləri:

-1944-cü il sentyabr ayının 15-də Əli Bayramlı, indiki Şirvan şəhərində anadan olmuşam. 70 yaşın astanasındayam. İdmanın sərbəst güləş növü ilə 1959-cu ildən məşğul olmuşam. O zaman biz rəhmətlik Kamal Xəlilovun rəhbərliyi altında Kürün sahilindəki Zubovka suvurma sexinin yanındakı o qədər də şəraiti olmayan idman zalında məşğul olurduq. 1961-ci ildən sonra isə məşqlərə ümumi rəhbərliyi mərhum Kamal müəlimin qardaşı ötən il dünyasını dəyişmiş rəhmətlik SSRİ idman ustası Tofiq Xəlilov öz üzərinə götürdü.

Xalça üzərində ilk qələbəni 1961-ci ildə qazandım. Həmin il Şamaxıda keçirilən gənclər arasında respublika birinciliyində qazandığım 2-ci mükafat məni gələcək qələbələrə ruhlandırdı. Bundan sonra mən 1962-ci ildə yenidən gənclər arasında Azərbaycan çempionu oldum və məşhur pəhləvan Salı Süleymanın xatirəsinə həsr olunmuş yarışda 1-ci yeri tutdum.

1963-cü ildə yaşlılar arasında Azərbaycan birinciliyində 2-ci mükafatçı oldum.

1963-cü 1966-cı illərdə Qazaxıstan Respublikasında hərbi xidmət keçdim. Hərbi xidmət illərində Qazaxıstan birinciliyində, Vladivostok şəhərində təşkil olunan dairə birinciliyində çempion adına layiq görüldüm. Bu illərdə mən həmçinin Karakanda və Alma-Ata şəhərlərində keçirilən yarışlarda da qələbə qazandım.

1966-cı ildə hərbi xidmətdən qayıtdım. İdman fəaliyyətimi davam etdirərək sərbəst və sambo güləşi üzrə «Neftçi» cəmiyyəti Respublika Şurasının və Sumqayıtda keçirilən yarışların qalibi oldum.

Sambo güləşi üzrə respublika birinciliyində 3-cü yerə çıxmışam. 1969-cu ildə «Dinamo» cəmiyyətində SSRİ idman ustası normasının yerinə yetirdim. 1980-ci illərin əvvəllərində Əli Bayramlı İxtisaslaşdırılmış Güləş məktəbində 4 il məşqçi işlədim. Həmin illərdə idman sahəsində ilk addımlarını atmış Vahid İmanov və Əsəd İmanov zəhmətimi itirmədilər. Bir neçə ildən sonra SSRİ idman ustası normasını yerinə yetirdilər.

Qeyd etmək istəyirəm 32 yaşlı oğlum Eldəniz Cabbarov da sambo güləşi üzrə idman ustası adına layiq görülüb.

6 nəvəm var. Onlardan 5-i oğlandır. Oğlan nəvələrim idmanla məşğul olurlar. Ümid edirəm ki, onlar da gələcəkdə idman sahəsində layiqli qələbələr qazanacaqlar.



**İ.Əliyev**

İsmayıl Bəhlul oğlu Əliyev:

-1947-ci ildə Neftçala rayonunda dünyaya göz açmışam. 10 yaşımda valideynlərim Əli Bayramlı, indiki Şirvan şəhərinə köçmüşlər. 1961-ci ildə Kürün sahilindəki idman zalında yunan-Roma güləş növü üzrə məşqlərə başlamışam. İlk məşqçim rəhmətlik SSRİ idman ustası Tofiq Xəlilov, sonralar isə SSRİ idman ustası mərhum Dilsuz Novruzov olmuşdur. Qeyd etmək istəyirəm ki, güləşdən əlavə mən idmanın yüngül atletika, ağırlıqqaldırma, futbol, stolüstü tennis növlərini çox sevirdim. 1966-1969-cu illərdə hərbi xidmətdə olmuşam. Hərbi xidmət dövründə güləş üzrə Zaqafqaziya hərbi dairəsinin çempionu olmuşam. Qarnizon birinciliyində qalib gəlmişəm. Bundan əlavə müxtəlif vaxtlarda gənclər arasında ümumittifaq turnirinin iştirakçısı, Zaqafqaziya birinciliyinin 3-cü mükafatçısı, Azərbaycanın V yubiley spartakiadasının 2-ci mükafatçısı, sərbəst güləş üzrə texnikumlar arasında keçirilən spartakiadada isə fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam.

Bunlarla yanaşı sambo güləşi üzrə keçirilən yarışlarda da qüvvəmi sınamışam.

1969-71-ci illərdə Əli Bayramlı Pedaqoji Məktəbinin bədən tərbiyəsi şöbəsində təhsil almışam.

4 övladım, 7 nəvəm var. İndi boş vaxtlarımı nəvələrimlə keçirirəm. Günün bir hissəsini isə Kürün sahilində, İsmət Qayıbov adına parkda dincəlirəm. Fürsətdən istifadə edərək Kürün sahilində, İ.Qayıbov adına parkda yaradılan gözəl şəraitə görə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova veteran idmançılar adından minnətdarlığımı bildirirəm.

**Alik Rzayev,**
**Azərbaycan Jurnalistlər birliyinin üzvü, «Qızıl qələm» mükafatı laureatı**

# ŞAGİRDLƏRİMİZİN NAİLİYYƏTLƏRİ



**Hər il olduğu kimi, 2013-2014-cü tədris ili məktəbimiz üçün uğurlu oldu. Bu tədris ilində şagirdlərimiz respublikamızda keçirilən müsabiqə və festivallarda yaxşı nəticələr əldə etdilər.**

Uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının III respublika müsabiqəsinin Şirvan şəhər zona turu 2-3 may 2014-cü il tarixdə bizim məktəbin konsert zalında keçirildi.

Müsabiqənin münsiflər heyətinə Azərbaycanın xalq artisti, «Şöhrət» ordenli, professor, görkəmli tarzən Ramiz Quliyevin sədrliyi ilə professor Arif Əsədullayev, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin məsul işçiləri Natiq Əliyev və Leyla Rzayeva daxil idilər.

Şirvan şəhər zona turunda respublikamızın 18 rayon və şəhərindən gəlmiş uşaq musiqi və incəsənət musiqi məktəblərinin şagirdləri iştirak edirdilər. Müsabiqədə bizim məktəbdən 2 ixtisas üzrə 6 şagird iştirak edirdi. Şagirdlərimizdən bu müsabiqədə tar ixtisası üzrə V sinif şagirdi Nuran Bayramzadə (müəllim Daşqın Gülmalıyev, konsertmeyster Yaqut Nəcəfova), V sinif şagirdi Vüqar Abdullayev (müəllim Seyidabbas Səmədov, konsertmeyster Güllü Əsgərova), IV sinif şagirdi Sarif Nuhbalayev (müəllim Anar Süleymanov, konsertmeyster Zərifə Şirinova), qarmon ixtisası üzrə IV sinif şagirdi Babək Muradlı (müəllim Rəhman Həsənov, konsertmeyster Fəridə Həsənova) münsiflər heyətinin qərarı ilə tərifnaməyə layiq görüldülər.

Bu müsabiqədən sonra Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin 2014-cü il üçün iş planına uyğun olaraq cari il iyun ayının 11-dən 19-dək Bakı şəhərində uşaq musiqi incəsənət məktəblərinin xanəndəlik ixtisası üzrə Xan Şuşinski adına II Respublika Muğam Festivalı keçirildi. Festivalda məktəbimizin xanəndəlik sinfinin 2 şagirdi iştirak edirdi. II sinif şagirdləri Mirsultan Həsənov və Tacir İsmayılovu bu müsabiqəyə məktəbin direktoru Mübariz Dadaşov, xanəndəlik sinfinin müəllimi İrşad İbişov,tar müəllimi Anar Süleymanov və kamança sinfnin məzunu Qiyas Qurbanlı hazırlamışdılar.

Bakı şəhərindəki Q.Qarayev adına 8 saylı incəsənət məktəbində keçirilən festivalda münsiflər heyəti xaq artisti Aygün Bayramovanın sədrliyi ilə xalq artisti Zabit Nəbizadə, əməkdar artistlər Gülyaz Məmmədova və Fehruz Səxavət şagirdimiz Mirsultan Həsənovun çıxışını yüksək qiymətləndirərək onu festivalın diplomuna layiq gördülər.

Şagirdimiz Mirsultan Həsənovun Qulu Əsgərovun «Əziz dost» mahnısı ilə festivalın yekun konsertinə salınması xəbəri məktəb kollektivinin sevincinə səbəb oldu.

25 iyun 2014-cü il tarixdə Beynəlxalq Muğam Mərkəzində keçirilən yekun konsertdə şagirdimiz Mirsultan Həsənovun çıxışı tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

**Əbülfət İSMAYILOV,**
**şəhər uşaq musiqi məktəbində tədris işləri üzrə direktor müavini**

## VƏTƏNİ SEVMƏYİ ÖYRƏT

*İbtidai sinif müəllimi*
*Ulduza xanıma*

Körpələr məktəbə hazırlıq keçir,
Tutanda qələmi hələ çaşırlar.
Onların hər biri şıltaq bir quzu,
Parta arxasında pıçıldaşırlar.

Məktəbə yol açır ilk qədəmləri,
Şagird rütbəsini qazanmayıblar.
Bəs niyə qayğılı görünür onlar?
«Əlifba» sözünü yazanmayıblar.

İstə uşaqları balalarıntək,
Nə gözəl səslənir müəllim-ana.
Müqəddəs sənətdə, nə bəxtəvərdir
Ömrünü şam kimi əridib yanan.

Müəllim sənəti sənətlər şahı,
Bu hissi mənimlə sən də tən keçirt.
Dərsi danışanda ürəksiz demə,
Dediyin hər çözü ürəkdən keçirt.

Əməksevərliyi düz öyrətməsən
Vaxtı boş keçirib səhvə verərlər.
Özün bildiyini versən onlara,
Onlar da Vətənə töhfə verərlər.

Heç nə əsirgəmə şagirdlər üçün,
Sənə hər ağızdan dualar çatar.
Sirli bir dünyadı, nə bilmək olar,
Sinifdə bəlkə də bir alim də var.

Uca zirvələrə qaldırır, inan,
Şagirdə dediyi hər an «Can» səni.
Onu da bilirik, əziz müəllim,
Onlara sevgidir yaşadan səni.

Məktəb yollarında saç ağartmısan,
Mən deyə bilmərəm sən nəyi öyrət.
Vətən də, ana da əkiz olsa da,
Birinci Vətəni sevməyi öyrət.

## DUYĞULAR

Yenə quşlar düzülübdü qatara,
Qar əriyir, sular gedir axara.
Novruzgülü elçi gedib bahara,
Min həvəslə gətirəcək gözəli,
Sıxacaqdır əlimizi yaz əli.

Bahar gələr, baş qoyulmaz balınca,
Arılar da uçar çiçək dalınca.
Qarışqalar ayaqları yalınca
Yol üstündə qara sapa bənzəyər,
Lalə, nərgiz təbiəti bəzəyər.

Fəsillər də elə bil ki, nəsildi,
Gedər-gələr, demək olmaz kəsildi.
Payız elə, bahar belə fəsildi.
Kainat da cana gələr baharda,
Hər nə varsa, üzə gülər baharda.

***Yaqub SALMAN***
*mart 2014-cü il.*



# «NAXÇIVAN-DÜNYANIN ƏN GÖZƏL GUŞƏSİ»

**Şirvan şəhər Mərkəzi kitabxanasında ölkə Prezidenti İlham Əliyevin 14 yanvar 2014-cü il tarixli sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbirdə əslən Naxçıvandan olan ziyalılar, şəhər sakinləri və mədəniyyət işçiləri iştirak edirdilər.

Kitabxananın direktoru İltifat Nəbiyev çıxışında qeyd etdi ki, 90 il bundan əvvəl-1924-cü ildə fevralın 9-da Azərbaycanın dövlətçilik tarixində mühüm hadisə baş vermişdir. Naxçıvan Muxtar Respublikası təşkil edilmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.

Uşaq şöbəsinin əməkdaşı Vəzifə Xudiyeva Muxtar Respublika üçün ağır dövr olan 1990-1993-cü illərdəki çətinliklər və onların aradan qaldırılmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri ilə bağlı məlumat verdi.

Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyev yolu ölkəmizin dünəninin, sabahının və gələcəyinin yoludur. O qeyd etdi ki, ölkənin bu günki inkişafı möhtərəm Prezidentimiz İlham Əliyevin bu quruculuq xəttini davam etdirməsinin daha bir əyani ifadəsidir.

Əslən naxçıvanlı olan Metodika şöbəsinin müdiri Şəfəq Səlimova Naxçıvanda keçirdiyi uşaqlıq, gənclik illərinin xoş xatirələrini yada saldı. O cözəl coğrafi şəraitə, zəngin floraya malik olan Naxçıvan şəhərindən, onun tarixi və müqəddəs sayılan yerlərindən ətraflı danışdı. Həmçinin Şəfəq xanımın Naxçıvan mətbəxinin zənginliyi barədə verdiyi məlumatlar böyük marağa səbəb oldu.

Naxçıvan Muxtar Respublikasnın keçmişini və bu gününü əks etdirən kitablardan təşkil olunmuş «Qədim diyar Naxçıvan» başlıqlı kitab sərgisini tədbir iştirakçıları xüsusi maraqla qarşıladılar.

**Mehriban NOVRUZOVA,**
**oxu zalının müdiri**

## DOĞMA ŞƏHƏRİM MƏNİM

Dəmirqapı Dərbəndim, Şirvanşahlar sarayım,
Yayılsın dünyaya səsim, harayım,
Torpağım, sərvətim, günəşim, ayım,
«Qara qızıl» sərvətli, bəhərim mənim,
Doğma Şirvan şəhərim mənim!

Qoynunda göz açdım dünyaya sənin
Yayılıb hər yana şanın-şöhrətin
İlhamışan əlimdəki qələmim
«Qara qızıl» sərvətli Vətənim mənim
Doğma Şirvan şəhərim mənim!

Göz açdığım torpağımsan sən mənim,
Günü-gündən abadlaşır mənim doğma Vətənim,
Mahir deyir fəda olsun sənə mənim nəfəsim,
«Qara qızıl» sərvətli, bəhərim mənim!
Doğma Şirvan şəhərim mənim!

**Mahir XİLƏLİ**

# BALACA RƏQQAS

**Artıq üç ildir ki, rəqslə məşğul olur. Rəqsin incəliklərini, mahiyyətini öyrənmək və hərəkətləri dəqiqliklə yerinə yetirmək üçün daim öz üzərində çalışır. Sevərək solo ifa etdiyi «Avar», «Bayram», «İgidlər» və onlarla bu kimi rəqsləriylə neçə-neçə tamaşaçının ürəyinə yol tapıb.**

Haqqında danışdığımız balaca rəqqas, Şirvan Mədəniyyət evində fəaliyyət göstərən rəqs dərnəyinin üzvü 8 yaşlı İlkin Əzizovdur. İlkin yaşının az olmasına baxmayaraq, artıq daha çətin rəqsləri müəlilmi Cavid Ziyadidən aldığı dərslərlə repertuarına daxil etməyə çalışır. Məşqlərdə aktivliyi və yaradıcı xüsusiyyətiylə hər zaman fərqlənir.

Gələcəkdə həkim olmaq istəyən İlkinin maraq dairəsi, dünyagörüşü geniş və əhatəlidir. Futbol oynamağı, kompüterdə işləməyi də çox sevir. Dərslərinə məsuliyyətlə yanaşan İlkin əlaçıdır. Həm valideynlərinin, həm də müəllimlərinin sevimlisidir. Hazırcavab olması, eyni zamanda fikirlərini sərbəst və özünəməxsus şəkildə çatdırması hər kəsdə maraq oyadır.



Onun haqqında «Tumurcuq» və başqa mətbu orqanlarında yazılar dərc olunub. Dəfələrlə televiziya proqramlarında iştirak edib. Şirvan şəhərində keçirilən tədbirlərə İlkin Əzizov solo ifasıyla rəng qatır.

Balaca qəhrəmanımızın babası Seyran Əzizov deyir ki, İlkinin uğurları ömrümüzə sevinc gətirir. Həm dərslərində, həm də rəqsdə nailiyyət əldə etməsi üçün daim çalışırıq. Onu əsl vətəndaş, gözəl həkim kimi görmək ən böyük arzumuzdur. İnanırıq ki, nəvəm həm bizim, həm də müəllimlərinin ümidlərini doğruldacaq!

**Yaqut VAFİQQIZI**

# "HƏRƏNİN ÖZ ULDUZU»ŞƏHƏRİMİZDƏ

**Azərbaycan Dövlət Musiqili Teatrının kollektivi 114-cü mövsümün son qastrol səfərini-Şirvanda başa vurdu. Kollektiv Şirvan şəhər Mərkəzi Mədəniyyət evində «Hərənin öz ulduzu» (Süleyman Ələsgərov, İsi Məlikzadə) tamaşasını sənətsevərlərə təqdim etdi.**



Əsas rollarda respublikanın xalq artisti Fatma Mahmudova, əməkdar artist Novruz Əliyev, aktyorlardan Gülcahan Salamova, Elçin İmanov, Elxan İsmayılov, Rəsmiyyə Nurməmmədova və Nigar Qarayeva çıxış etdilər.


## «İŞIQ»- 2014 ƏZİZ OXUCULAR!

2014-cü ilin II yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.

6 aylıq abunə haqqı 12 manatdır.

«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və Şirvan şəhər mətbuat yayımı şöbəsində yazılmaq olar.

H\ h- AZ39AIIB
33060019444100281141.VÖEN -2100104521.
İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!



Baş redaktor: M.M.XƏLİLOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200